UOT 37

***Tamilə Oqtay qızı Həsənova***
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqrammı üzrə dissertantı,*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının müəllimi*

# GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN TƏŞKİLİ YOLLARI

***Тамила Октай гызы Гасанова***
*диссертант по программе доктора философии*
*Бакинского Государственного Университета,*
*преподаватель Азербайджанской Академии Труда и Социальных Отношений*

# ПУТИ ОРГАНИЗАЦИИ ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ МОЛОДЕЖИ

***Tamila Ogtay Hasanova***
*doctoral student of the PhD program of the Baku State University,*
*lecturer at the Azerbaijan Academy of Labor and Social Relations*

# WAYS OF ORGANIZATION OF PATRIOTIC UPBRINGING OF YOUTH

**Xülasə.** Məqalədə pedaqogika elmi vasitəsilə gənclərdə vətənpərvərlik tərbiyəsinin aşılanmasının əhəmiyyəti, aktuallığı və həlli yolları haqqında söhbət açılmışdır.

Bildiyimiz kimi, pedaqogikada tərbiyənin növləri çoxdur. Hər bir insan əməyi sevməli, mədəni, əxlaqlı, fiziki cəhətdən sağlam olmalı, mənəvi keyfiyyətləri ilə seçilməli, hüquq və vəzifələrini dərindən bilməli və dərk etməlidir. Gənclərin vətənpərvərlik ruhunda tərbiyələndirilməsinə isə xüsusilə önəm verilməlidir. Məqalədə də qeyd etdiyimiz kimi, vətənpərvərlik tərbiyəsi bütün tərbiyələrin əsasında dayanır. Hər kəs ilk olaraq öz ana vətəninə, doğma torpağına məhəbbət hissi ilə yanaşmalıdır. Bu hislər olsa, digər tərbiyəvi hislər də formalaşacaqdır.

Gənclərə vətənpərvərlik hissinin aşılanması pedaqogikada aktual məsələlərdən biridir. Ümumiyyətlə, tərbiyə məsələsi mürəkkəb və çoxcəhətlidir. Uşaq dünyaya gəldiyi vaxtdan tam formalaşma başa çatanadək tərbiyə olunur. Xalqımız tərbiyə məsələlərinə hər zaman yüksək tələbkarlıqla və həssaslıqla yanaşmışlar. Tərbiyənin nəticələrini özünəməxsus şəkildə dəyərləndirmişlər. Xalqımız xüsusilə mərdliyi çox yüksək dəyərləndirir və böyüməkdə olan nəsildən cəsur olmağı tələb edir. Vətənpərvərlik öz el - obasını, torpağını, ana dilini, milli atributlarını, vətənini sevməkdə, onun inkişafına köməklik göstərməkdə, vətəninin keçdiyi inkişaf yolunu, tarixini öyrənməkdə, sərhədlərini mühafizə etməkdə, əgər lazım gələrsə, canını vətən yolunda qurban verməkdə, nümunəvi davranmaqda, yaxşı oxumaqda, güclü təhsil almaqda, bilikli savada, yüksək dünyagörüşünə sahib insan olmaqda, vətəndən kənarda ona baş ucalığı gətirməkdə ifadə olunur.
***Açar sözlər**: gənclər, vətənpərvərlik, tərbiyə, vasitəsilə, pedaqogika*

**Резюме.** В статье рассматривается значение, актуальность и пути решения патриотического воспитания молодежи в педагогической науке.

Как известно, в педагогике существует множество видов воспитания. Каждый должен любить работу, быть здоровым в культурном, моральном и физическом отношении, отличаться своими моральными качествами и иметь глубокие знания и понимание своих прав и обязанностей. Особое внимание следует уделить воспитанию молодежи в духе патриотизма. Как мы упоминали в статье, патриотическое воспитание - основа всего воспитания. В первую очередь, каждый должен любить свою Родину. Если есть эти чувства, образуются другие воспитательные чувства.

Воспитание чувства патриотизма у молодежи - одна из самых актуальных проблем педагогики. В целом вопрос воспитания сложный и многогранный. Воспитывают ребенка от рождения до полного формирования. Наши люди всегда требовательно и чутко подходили к вопросам образования. Они по-своему ценили результаты воспитания. В частности, наш народ всегда ценит мужество и требует мужества от подрастающего поколения. Патриотизм - это любить свою страну, землю, родной язык,

национальные атрибуты, Родину, содействовать ее развитию, изучать путь развития и историю Родины, защищать ее границы, жертвовать своей жизнью за Родину, Образцовое поведение, хорошее воспитания, что выражается в получении сильного образования, знаний, в том, чтобы быть человеком высокого мировоззрения и приносить ему гордость за пределами страны.

***Ключевые слова***: *молодежь, патриотизм, воспитания, средства, педагогика*

**Summary.** The article considers the importance, relevance and ways of solving patriotic education of young people in pedagogical science.

As we know, there are many types of education in pedagogy. Everyone must love work, be culturally, morally and physically healthy, be distinguished by their moral qualities, and have a deep knowledge and understanding of their rights and responsibilities. Particular attention should be paid to educating young people in the spirit of patriotism. As we mentioned in the article, patriotic education is the basis of all education. First of all, everyone should love their homeland. If there are these feelings, other educational feelings will be formed.

Instilling a sense of patriotism in young people is one of the most pressing issues in pedagogy. In general, the issue of education is complex and multifaceted. The child is brought up from birth to the end of full formation. Our people have always approached the issues of education with high demands and sensitivity. They evaluated the results of education in a unique way. Our people, in particular, always value courage and demand courage from the younger generation. Patriotism is to love one's country, land, mother tongue, national attributes, homeland, to assist in its development, to study the development path and history of the homeland, to protect its borders, to sacrifice one's life in the way of the homeland, to behave exemplary, to read well. It is expressed in getting a strong education, knowledge, being a person with a high outlook, and bringing him pride outside the country.

***Keywords:*** *youth, patriotism, upbringing, means, pedagogy*

Gənc nəslin tərbiyəvi, hərtərəfli savada, geniş dünyagörüşə, milli və ümumbəşəri əxlaqi dəyərlərə, mənəvi hislərə sahib bir şəxsiyyət kimi formalaşdırılması və cəmiyyətimiz üçün layiqli vətəndaş yetişdirilməsi hər zaman pedaqogikada aktual məsələlər olmuşdur.

Sürətlə dəyişən dünyada cəmiyyətimiz də gündən-günə inkişaf edir. Bu da yetişməkdə olan gənc nəslin qarşısında məsuliyyət hissini artırır. Elm və texnikanın inkişaf etdiyi bir zamanda gənclərin formalaşması şəraiti olduqca mürəkkəbləşir. Nəticədə də gənclərə lazımi mənəvi keyfiyyətlər aşılamaq üçün tərbiyənin rolu da artır.

İnsan hisləri arasında ən alisi vətənpərvərlik hissidir. Vətən sevgisi insanı tərəqqiyə, inkişafa və yaradıcılığa təhrik edir. Vətənə məhəbbət, torpağa bağlılıq, vətəni düşməndən mühafizə etmək hisləri hələ kiçik yaşlarından uşaqlara öyrədilməlidir. Bu hislər çox gənclərimizdə var. Azərbaycan gəncləri Vətən torpağı naminə, azadlığı naminə həmişə mübarizə aparıb və aparmaqdadır.

**Nəticələr və onun müzakirəsi:** Maddi və mənəvi təcrübənin son nailiyyətləri, yaranma tarixi, fəaliyyət üsullarının ötürülməsi pedaqogika vasitəsi ilə həyata keçirilir. Yəni mövcud təcrübənin böyüyən nəslə ötürülməsi, öyrədilməsi mövcud istehsalı, sənayeni idarə edəcək qüvvənin saxlanılması, istehsal və digər mənəvi mövcudluğun təmin edilməsi deməkdir. Bu isə yalnız geniş mənada tərbiyənin vəzifəsidir [2, s. 335].

Pedaqogika qədim tarixə malikdir. İnkişaf etmiş cəmiyyətdə artıq şəxsiyyət formalaşdırılması, təcrübənin ötürülməsi prosesi mürəkkəbləşmiş və xüsusi fəaliyyət sistemi tələb edirdi. Bu isə pedaqogika elminin meydana gəlməsi, elm kimi inkişaf edib formalaşmasına səbəb olmuşdur [1, s. 35]. Ümumiyyətlə, cəmiyyət özünə davamçı, varis hazırlayır, yəni cəmiyyətin mövcudluğu tələbi özü insanların həyata hazırlanmasını tələb edir.

Müəllimlərin öz işlərinə yaradıcı yanaşması nəticəsində yeni qabaqcıl təcrübələr meydana çıxır. Belə səmərəli işlər, təcrübələr əsasında isə yeni ideyalar, qabaqcıl fikirlər, elmi nəticələr üzə çıxarılır, müəyyən edilir. Tədqiqat üsulları pedaqoji prosesin və pedaqoji fəaliyyətin spesifik xüsusiyyətlərinə uyğun müəyyən edilmişdir və pedaqoji prosesin xüsusiyyətlərini özündə əks etdirir [2, s. 63].

**Vətənpərvərlik əxlaqi və mənəvi tərbiyənin əsas tərkib hissələrindəndir.**

Tərbiyə insanın dünyagörüşü və əqidəsini formalaşdırmalıdır. Bunun nəticəsində insan tə-

biət və cəmiyyət hadisələrini, özünün və başqalarının davranışını yüksək qiymətləndirir. İnsanın mənəvi inkişafında təhsil və elm qüdrətli silahdır. Tərbiyənin məqsədi əsl vətəndaş yetişdirməkdir. Tərbiyə insanda geniş bilik, əsrin qabaqcıl elmləri ilə silahlanmaq, insanpərvərlik, vətənpərvərlik, əməksevərlik və s. tələb edir [1, s.76].

Vətənin daha da çiçəklənməsi üçün var qüvvəsi ilə çalışmaq, vətən naminə vuruşa hazır olmaq, tarixdə vətənpərvərlik nümunələri göstərmiş şəxsləri unutmamaq və s. vətənpərvərlik tərbiyəsinin məzmununu təşkil edir. Ailə tərbiyəsində zorakılığı rədd etmiş və uşaq şəxsiyyətinə hörmət olunmasını tələb etmişdir [5, s. 277].

İngilis yazıçısı Klay Steplz vətənpərvərliyin dörd növünü ayırırdı: evinə məhəbbət, vətəninin keçmişinə hörmət, xalqının ucalığı və yüksəkliyi [14].

Milli ideoloji tərbiyənin elementlərinin mənimsədilməsi işi yeniyetmələrdə azərbaycançılıq ideologiyasının formalaşdırılması şagirdlərdə milli əqidə, milli ruh, milli vətənpərvərlik hissini gücləndirir, onlarda iradəlilik, dözümlülük, mətinlik, qorxmazlıq, milli təəssübkeşlik, milli dilini, dinini tarixi dəyərlərini qorumaq kimi iradi keyfiyyətləri, qarşıya çıxan çətinlikləri güclərinə müvafiq səylə aradan qaldırmaq və s. bu kimi yüksək milli-əxlaqi keyfiyyətlərin formalaşdırılmasına da səbəb olur [3, s. 34].

Tərbiyələndirmə zamanı bir neçə cəhətləri də nəzərə almaq gərəkdir. Çətinlik dərəcəsinə görə pedaqogika tərbiyəni üç növə ayırır: ilkin tərbiyə, yenidəntərbiyə və özünütərbiyə.

**İlkin tərbiyə:** Tərbiyə işinin nisbətən asan növü ilkin tərbiyədir. İlkin tərbiyə adamın erkən yaşlarından, anadan olduğu gündən başlayır. Uşağın, yeniyetmə və gəncin şəxsiyyətində baş qaldıran mənəvi keyfiyyətlər valideynlər, müəllimlər və digər tərbiyəçilər tərəfindən ailə və cəmiyyət üçün faydalı hesab olunduqca ilkin tərbiyə davam edir.

**Yenidəntərbiyə:** Yenidəntərbiyə ilkin tərbiyəyə nisbətən xeyli çətindir. Çünki yenidəntərbiyə zamanı valideyn və ya müəllim, yaxud tərbiyə ilə məşğul olan digər şəxs kimi əsas istiqamətdə iş aparılmalı olur. Yanlış və zərərli mənəvi keyfiyyətlər şəxsin şüurundan davranışına keçirildikdə tərbiyəçinin işi daha da çətinləşir [2, s. 42].

**Özünütərbiyə**. İlkin tərbiyəyə və yenidəntərbiyəyə nisbətən özünütərbiyə daha çətin, daha kamil, daha mürəkkəb prosesdir. Özünütərbiyə zamanı isə uşaq, yeniyetmə və ya daha da yaşlı şəxs tərbiyəçinin nəzarəti və rəhbərliyi olmadan müstəqil, öz təşəbbüsü ilə zəruri saydığı mənəvi keyfiyyətləri mənimsəyir. Deməli, tərbiyəçinin bilavasitə nəzarəti olmadan, lakin onların məsləhətlərinə əsasən şəxsin cəmiyyət üçün olmasıdır [2, s.45].

Azərbaycan xalqının Vətənə, doğma yurda məhəbbəti və bağlılığı öz rişələrini onun folklor nümunələrindən, böyük söz ustadlarının əsərlərindən, dövlət xadimləri və sərkərdələrinin, qəhrəmanlarının nümunələrindən alır. Söz dünyasının korifeyləri - Xaqani, Nizami, Tusi, M. Əvhədi, Ə. Təbrizi, Xətai, M. Füzuli, A. Bakıxanov, M.F. Axundov, A. Səhhət, S. Vurğun və b. Vətəni, onun gözəlliyini vəsf etmiş gəncləri Vətən torpağının qədrini bilməyə, göz bəbəyi kimi qorumağa çağırmışlar [7, s. 43].

M.Ə. Sabir gənc nəsildən kamil, saf əxlaqlı adamlar yetişdirməyə, özləri və insanlıq üçün yüksək dərəcədə faydalı olmağa kömək edən şəxsiyyətlər formalaşdırmağa yönəldilən ideyalar irəli sürürdü [7, s. 75]. Sabirin əsərlərində əxlaq tərbiyəsinə, vətənpərvərliyə, dostluq və yoldaşlığa, böyüklərə hörmətə və s. keyfiyyətlərə yüksək qiymət verir. Sabirə görə zəhmət insandan böyük səy, iradə tələb etsə də nəticəsi fərəhlidir [12, s.55].

Klassik və qabaqcıl pedaqoji irsdən, Azərbaycan maarifçilərinin ideyalarından bəhrələnən dahi bəstəkarımız Ü. Hacıbəyov (1885-1948) öz yaradıcılığında tərbiyə məsələlərinə xüsusi yer vermişdir. İnsanın inkişaf edib formalaşmasında tərbiyənin rolunu yüksək qiymətləndirən Ü. Hacıbəyovun tərbiyə haqqındakı fikirlərinin əsasını "humanizm, vətənpərvərlik, beynəlmiləlçilik, nikbinlik, mübarizlik təşkil edir". Eyni zamanda, insan fəaliyyəti Vətən maraqlarına xidmət etmək və öz xalqının suverenliyinə və milli qüruruna hörmət yaratmaq məqsədi daşıyır [13,s.167].

Rus yazıçısı L.N. Tolstoyun "Tərbiyə, bir fenomen olaraq öz fərqli mənşəyinə malikdir: a) ailədə, b) inancda, c) hökumətdə, d) cəmiyyətdə" [10, s. 57] indi də öz aktuallığını saxlayır.

Bununla yanaşı, Novikov öz əsərlərində qeyd edirdi ki, öz dilini tərk etmək, hətta ona xor baxmaq ədalətsizlikdir. Vətənini sevən hər

bir şəxs öz dilindən yabanı dili daha yaxşı bilənləri görmək çox kədərlidir [12, s. 36].

Dahi Füzuliyə görə yalnız gözəl insani rəftar nəticəsində insanı tərbiyə etmək mümkündür. Tərbiyə vaxtında, düzgün verilməsə insan ağlının pas basar və həmin şəxs sərt daşa, zərərli tikana çevrilər, hamı təlim-tərbiyə görməlidir. O, insanda humanizm, vətənə və xalqa sevgi, incəlik, zəriflik, mərdlik, vəfa, sədaqət, sadəlik və s. müsbət əxlaqi keyfiyyətləri tərbiyə etməyi tələb edirdi [4, s. 31].

M.F. Axundov uşaqlara nəcib əxlaqi keyfiyyətlər aşılamağa, vətənpərvərlik tərbiyəsinə böyük əhəmiyyət verirdi. O, cəmiyyətin üzvlərinin xalqa, qadın hüququna hörmət bəsləyən, nəzakətli, mədəni, həqiqəti sevən, özünə və başqalarına tələbkar adamlar olmalarını arzu edir və həyatda da belə görmək istəyirdi [9, s. 113].

**Gənc nəslin vətənpərvər ruhda böyüməsində Tarix fənninin böyük əhəmiyyəti vardır.** Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin əsas məqsədi məktəblilərdə vətənpərvərlik, fəal vətəndaşlıq mövqeyi, digər xalqlara, ümumbəşəri humanist dəyərlərə hörmət, tarixi mənbə, eləcə də sərbəst nəticə çıxarmaq və kollektivdə işləmək bacarıq və vərdişləri aşılamaqla informativ-kommunikativ və hüquqi mədəniyyət formalaşdırmaqdan ibarətdir [15].

Şagirdlər tanınmış şəxsiyyətlərin həyat və fəaliyyəti, Azərbaycan xalqının döyüş və əmək ənənələri ilə məhz fənlərin tədrisi prosesində tanış olurlar. Bu fənlər onlarda ən humanist ideallar tərbiyə edir, şagirdlər respublikada, dünyada baş verən ən mühüm prosesləri öyrənir, ona öz münasibətini bildirir. Bu baxımdan tarix, coğrafiya, ədəbiyyat, rus dili, Azərbaycan dili, xarici dillərin imkanları daha genişdir [8, s. 31].

**Tədqiqat metodologiyası:** Yeni yetişən nəslin nümayəndələrini sağlam ruhlu vətəndaşlar kimi yetişdirmək üçün aşağıdakı vəzifələrin həllinə nail olmaq vacibdir:

– Elmi dünyagörüşünə və ideya-siyasi səviyyəsinə görə hərtərəfli inkişaf etmiş vətəndaşlar yetişdirmək. Bunun üçün həm təlim prosesində, həm də dərsdənkənar tədbirlərdə şagirdlərə elmlərin əsaslarını öyrədərkən onları dövlətçiliyə, onun atributlarına məhəbbət, hörmət və ehtiram hissi aşılanmalıdır;

– Şagirdlərin əxlaqlarının saflaşdırılmasına nail olmaq lazımdır;

– Şagirdləri hərtərəfli elmi-bədii zövqə malik olan adamlar kimi yetişdirmək lazımdır;

– Orta ümumtəhsil məktəblərində şagirdlərin hər birinin fiziki tərbiyəsi qayğısına qalmaq, onların fiziki mədəniyyətini formalaşdırmaq vəzifələrdən biridir;

– Öyrəncilərin ekoloji tərbiyəsinin formalaşdırılması üçün müxtəlif tədbirlərdə onları “ekoloji davranış” anlayışları ilə yaxından tanış etmək, ətraf mühiti qorumaq üçün onlarda bir sıra əməli vərdişlər aşılamaqdır;

– Gənclərin iqtisadi tərbiyəsinin düzgün təşkili onların geniş dünyagörüşünü formalaşdırır;

– Yetişən nəslin hüquq tərbiyəsinin inkişaf etdirilməsi, onların hüquq normalarına münasibətlərini formalaşdırır, hüquq mədəniyyəti sahəsindəki fəallığını artırır, onların əmlak hüququ, məişət hüququ, vergi hüququ və digər hüquq məsələləri və direktivləri haqqındakı təsəvvürlərini genişləndirir [15].

Vətənpərvərlik tərbiyəsinin əsaslı qolunu hərbi – vətənpərvərlik tərbiyəsi təşkil edir. Məktəbdən kənar uşaq tərbiyə müəssisələrində oyunlar prosesində əzmkarlıq, prinsipiallıq, siyasi sayıqlıq, dözümlülük, cəldlik, çeviklik kimi keyfiyyətlər yaradılır və tərbiyə olunur. Bu keyfiyyətlər isə vətənpərvərlik, vətənin müdafiəsi üçün zəruri və vacib əxlaqi keyfiyyətlərdir [6, s. 34-35].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 17 fevral tarixli 28s nömrəli sərəncamı ilə təsdiq edilmişdir ki: “Müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. .. Respublikanın əksər gəncləri vətən qarşısında öz vətəndaşlıq borclarını layiqincə başa düşür, onun qorunmasında və milli dövlətçilik quruculuğunda fəal iştirak edirlər” [16, s 62]. Azərbaycan tarix boyu xarici təcavüzlə mübarizə aparmışdır. Ermənilər torpaqlarımızı işğal edib öz əsarəti altında saxlayırdılar. Ancaq 2020-ci ildə 44 günlük müharibə ərzində xalqımızın öz prezidenti ilə birgə səyi nəticəsində, gənc qəhrəmanlarımızın mübarizliyi, ordumuzun gücü sayəsində torpaqlarımız düşmənlərdən azad oldu. Öz əzəli torpaqlarımız geri alındı. Bu qələbənin birinci səbəbi xalqımızda, gənclərimizdə vətənpərvərlik hissinin güclü olmasıdır.

**Problemin elmi yeniliyi.** Artıq bütün orta məktəb proqramlarına və ali məktəblərdə Birinci və İkinci Qarabağ müharibəsi və ya 44-günlük müharibənin canlı şahidləri və iştirakçıları (qazilərimiz,

milli qəhrəmanlarımız), torpaqlarımızın azad olunması uğrunda canından keçmiş şəhidlərimizin həyat nümunələri əlavə edilməklə yanaşı, onların həyat tərzi böyüməkdə olan nəsil üçün bir həyat tərzi, nümunəsi olmalıdır. Təhsilimiz bu istiqamətdə gənc nəslin tərbiyəsini davam etdirməlidir.

Proqramın əsas məqsədi gənclərdə vətənə dərin məhəbbət, vətənin tərəqqisi üçün çalışmaq və vətənin bütün maddi və mənəvi sərvətlərini daima qorumaq və artırmaq, onu müdafiə etmək hissləri aşılamaqdan ibarətdir:

- vətənə məhəbbət hissi gənclərin dövlət dilinə, milli musiqiyə, folklora, dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazır olduğunu əməli işlə sübut etməyində öz təzahürünü tapmalıdır;
- vətənin maddi və mənəvi sərvətlərini qorumaq, iqtisadi qüdrətinin yüksəlməsinə nail olmaq, baş verə biləcək iğtişaşlara, təxribatlara və təbii fəlakətlərə qarşı həmişə mübarizə iqtidarında olmaq lazımdır.

**Nəticə və praktik əhəmiyyəti:** Gənclərin tərbiyəsini kortəbii şəkildə həyata keçirmək olmaz. Müasir dövrdə pedaqogikanın vəzifələri cəmiyyətin tələbləri baxımından təlim, tərbiyə və təhsilin aktual problemlərini, pedaqoji gerçəklik problemlərini, insanların həyatının və fəaliyyətinin düzgün qurulmasında pedaqogikanın rolunu; pedaqoji prosesin ayrı-ayrı sahələrinin məqsədi, məzmunu, vasitələri, səmərəli üsullarını müəyyən etməkdən, inkişaf etdirib zənginləşdirməkdən ibarətdir [2, s. 63].

Vətənin taleyinin təhlükə altında olduğu, onun bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin getdiyi bir zamanda xalqın vətəni qorumağa qadir, mərd, sadiq gənclərə böyük ehtiyacı vardır. Buna görə də gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədəuyğun və sistemli iş aparılmalıdır.

**Ədəbiyyat:**

1. Ağayev M.H. Humanitar fənlərin tədrisi prosesində məktəblilərin vətənpərvərlik tərbiyəsi. Bakı, 2004. 178 s;
2. Əliyeva Z. Pedaqogika. Bakı, 2004, 92 s;
3. Hüseynzadə R.L. Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. Bakı, 2007.
4. Mir Cəlal, Füzuli sənətkarlığı. Bakı: Çaşıoğlu, 2018, 348 s.
5. Nizaminin hikmət və nəsihətləri. Bakı, 1981.
6. Paşayev T.S., Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi. Bakı: 2010, s. 6
7. Sadıqov F. Pedaqogika. Bakı: Adiloğlu, 2009, 600 s.
8. Seyidov Ə.Y. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən. Bakı, 1987.
9. Şahbaz Şamıoğlu (Musayev). Mirzə Fətəli Axundzadənin gürcü müasirləri: Monoqrafiya. Bakı: Mütərcim, 2012, 116 s.
10. Толстой Л.Н. Воспитание и образование. Санкт-Петербург, 2010-2018, с. 69
11. Valeyeva G. X. Etnopedaqogika vasitəsi ilə ibtidai sinif şagirdlərinin tədris prosesində vətənpərvərlik tərbiyəsi: Avtoref. dis. …ped.elm.nam. Çelyabinsk DPU, Maqnitoqorsk, 2006, 23 c.
12. Новиков А.М. Основы педагогики. М., 2010, 208 s.
13. *Хеллман Бен.* Детская литература как оружие: Творческий путь Л. Кормчего // «Убить Чарскую…»: Парадоксы советской литературы для детей 1920-е – 1930-е гг. / СПб, 2013, с. 20-45
14. Clive Staples Lewis, “Love”, https://predanie.ru/book/69504-lyubov/ müraciət 05.02.20
15. http://www.e-qanun.az/framework/5195;
16. https://www.arti.edu.az/noduploads/book/elmi-eserler-2018-3.pdf.

***Used literature and internet resources***

1. Agayev M.H. Patriotic education of schoolchildren in the process of teaching humanities. Baku, 2004, p.178
2. Aliyeva Z. Pedagogy, Baku, 2004, 92 p
3. Huseynzade R.L. Upbringing, education and pedagogical thought in Azerbaijan in ancient and early medieval times, Baku, 2007.
4. Mir Jalal, Fuzuli craftsmanship, Chashyoglu, Baku, 2018, 348 p.
5. Wisdom and advice of Nizami, Baku, 1981.

6. Pashayev TS, Ethnographic materials as an important tool of patriotic education of the young generation, Baku, 2010, p. 6, 153 p.
7. Sadigov F. Pedagogy. Baku: Adiloğlu, 2009, 600 p.
8. Seyidov A.Y. From the history of development of pedagogical thought in Azerbaijan, Baku, 1987, 315 p.
9. Shahbaz Shamioglu (Musayev). Georgian contemporaries of Mirza Fatali Akhundzadeh (monograph). Baku: Translator, 2012, 116 p.
10. Tolstoy L.N. "Upbringing and education" St. Petersburg, 2010-2018, p.69
11. Valeyeva GH Patriotic education of primary school students in the educational process through ethnopedagogy. Author's abstract dis.ped.elm.nam./ G.X. Valeyeva. Chelyabinsk DPU, Magnitogorsk, 2006, p.230
12. Novikov A.M. Fundamentals of pedagogy, Moscow, 2010, 208 p
13. Hellman Ben. Children's Literature as a Weapon: The Creative Way of L. Kormchy // "To Kill Charskaya .": Paradoxes of Soviet Literature for Children 1920s - 1930s. / SPb, 2013.S. 20-45 p.
14. Clive Staples Lewis, “Love”, https://predanie.ru/book/69504-lyubov/ apply 05.02.2021
15. https://www.arti.edu.az/noduploads/book/elmi-eserler-2018-3.pdf.
16. http://www.e-qanun.az/framework/5195;

**E-mail:** toma.hasan@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **H.H. Əhmədov,**
*ped.ü.fəls.dok.,* **İ.B. Əmirəliyeva**

**Redaksiyaya daxil olub:**10.03.2021